

**Fidan Nizaməddinqızı,**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, dosent**

# BİR TİKƏ ASFALT

**Deputat seçkilərində rayonumuza və kəndimizə xeyli qonaqlar gəlib, gedirdi. Seçiləcək namizədlər rayonun bütün kəndlərini, qəsəbələrini gəzirdi. Açığı bizim kəndə gələcəklərinə inanmırdım. Dağın ətəyində, yanlız bir maşın cığırından ibarət yolu olan, qazdan, istilikdən xəbərsiz bir kəndə qışın bu çağında nə üçün gəlməli idin.**

Kənd camaatının dediyinə görə yeni seçiləcək deputat ötən illərdəki namizədlərdən çox riskli görünürdü. Xeyli vədlər verirdi. Əvvəlcə məktəbdə toplaşmaq istədilər. Lakin məktəb soyuq olduğundan, nə uşaqlar vardı, nə də müəllimlər. Nəhayət qərara alındı ki, mağazanın yanında kiçik meydançada toplaşsınlar. Çünki, mağazanın qapsında kəndin kişlərinə rast gəlmək olurdu. Onu da deyim ki, kəndimizin bütün yükü bu kişilərin çiyinlərində idi.

## *Cavanların hamısı*

*Rusiya bazarlarında işləyirdi. Mağazadan bir az aralıda isə bulaq vardı. Qadınlar su aparmaq üçün daima bura gəlirdilər. Elə deputat seçiləcək namizədlərə də bu lazım idi. Çünki, belə ucqar kənd yerlərində eyni zamanda, qadınları və kişiləri bir yerə yığmaq müşkül məsələdir. Həmin gün anamın sevincinin həddi hüdudu yox idi.*

Anam əlindəki saxsı səhəngi boşaldıb, yenidən bulağa su bəhanəsi ilə namizədin verdiyi vədləri dinləməyə getdi, mən bacımla isti peçin yanında oturub oynayırdıq. Bacım yaman ağlayırdı. Anam onu qoyub heç yana gedə bilmirdi. Elə hey ağlayırdı. Namizəd isə qadınların ürəyini ələ almaq üçün kəndimizdə doğum evi tiktirəcəyinə, ən əsası isə kəndin yoluna asfalt döşəyəcəkdi ağızdolusu danışaraq, söz verirdi. Hamı xoşbəxtcəsinə imza atırdı. Kəndə yad traktor,və ya tikinti işçiləri, ya da maşın gələn kimi elə bilirdilər yol çəkməyə, yaxud doğum evi tikməyə gəliblər. Hər dəfə də ümidləri boşa çıxırdı, yazıq kəndlilərin. Artıq bir neçə il keçmişdi. Kənd camaatı deputatı yanlız televizordan, mavi ekrandan görürdülər. Kimisi arzusunu, kimisi tənəsini, kimisi də, qarğışını tökürdü deputata. Axı bu neçə ildə bircə dəfə də olsun gəlib baş çəkməmişdi. Yenə növbəti qış idi. Bir gün yan otaqdan anamın ahı-ufunu eşitdim. Anam çox möhkəm qadın idi. Adi ağrıdan zarımazdı. Yuxu boyu anamın qırıqqırıq səsi qulqıma gəlsədə ayıla bilmirdim. Bütün günü o qədər iş görürdüm, yatanda ölü kimi yatırdım. Atam odunları qırıb, ən yüngülünü qoltuğuna vurub gətirib özünü arvadına tərifləyirdi, məni odunların dalınca göndərib, özü anamın, odun üstündə buxarlanmış yeməklərdən yeyib, xumarlanıb yatırdı. Mən isə axşama kimi kəndin yuxarı əkin bağları adlanan yerindən odunları həyətə daşıyıb, doğrayırdım, səliqə ilə cərgələyib, ocağın yanına yığırdım. Sonra bacıma baxırdım, anam, ya çörək bişirərdi ya da bulaqdan su daşıyardı.

***Gecələr isə şam işığında dərslərmi yazırdım. Anamın səsi daha tez-tez və daha yaxın gəlməyə başladı. Ağrısını dişində sıxıb, məhəbbətlə məni ayıltmaq istəyirdi ki, mən yerimdən tik atıldım. Anam bacıma işarə edib dedi: Sevili sənə tapşırıram - dedi dərsə getmə hava soyuqdur. Bütün günübacına baxarsan, əynini geyindirib, əlinizə keçəni yeyərsiz. Mən xəstəxanaya gedirəm, gedirəm ki, sizə bacıdan, qardaşdan gətirim.Sən axı böyüksən, sən dərslərini rahat yazarsan.***

Mən təəcüblə anamın arxasınca baxa-baxa qaldım. Nə bacım, nə də mən səhərə kimi yatmadıq. Bacım anamı istəyirdi, mənsə onu sakitləşdirməyə çalışırdım. Güya ki, mən anamı istəmirdim?! Səhər saat altıya yaxınlaşırdı. Mən bacımı qalın geyindirib, anamın qalın şalı ilə kürəyimə sarıdım. Çəkmələrimi geyinib yola düzəldim. Mən rayona gedən yola sarı üz tutdum. Yolun yarısına kimi gəzə-gəzə gəldim. Düzü bir az qorxdum, bir az da ayaqlarımı don apardı. Yadıma atamın odun daşımağa gedərkən verdiyi məsləhətlər düşdü. Məni üşüyən görəndə atam deyirdi: "Əgər soyuq olsa qaç...həm evə tez çatacaqsan, həm də bədənin qızışacaq..." Mən qaçmağa başladım, bacım əvvəl şaqqanaq çəkib gülürdü. Yəqin elə bilib ki, onu qəsdən oynadıram. Sonra isə möhkəm yuxuya getdi. Axı bütün gecəni yatmamışdı.

***Xəstəxana düz kəndin çıxışında, yolun sonunda idi. havanın alatoranlığında xəstəxananın gur işıqları mənə elə sevinc bəxş etmişdi ki, elə bilirdim ki, binanın bütün pəncərələrindən anam boylanır. Xəstəxananın həyətinə çatan kimi anamı soruşdum: yolboyu özümə söz vermişdim ki, əgər yenə bacım olsa adını Gülər qoyacam. Qoy Sevil kimi ağlağan olmasın, gülsün. Qapıda dayanan qadın əli ilə yan pəncərəni göstərdi. Anam pəncərəyə sığınıb, için-için ağlayırdı. Ana necəsən, Sevil sən gedəndən ağlayır, onu sənin yanına gətirmişəm.***

## *Mən heç nə başa düşə bilmirdim*

Anam niyə ağlayırdı. Anamı heç vaxt ağlayan görməmişdim. Sevil başını çiynimə qoyub elə möhkəm yatmışdı ki, ayılmırdı. Anam atamı gözləməyimizi istəyirdi. Atam isə görünmürdü. Mən isə elə bilirdim ki, atam anamın yanındadır. Artıq səhər açılmışdır. Növbətçi qadın pəncərəni açdı. Qapının ağzına xeyli qadın, kişi əlində yemək işəri doluşdu. Mən bunu görüb Sevilin əlindən kökəni barmaqlarının arasından götürüb anama verdim. Birdən yadıma düşdü ki, axı anam gecə məni dürğuzanda demişdi ki, ya bacı gətirəcəm ya da qardaş, bəs nə oldu. Anam: bacı öldu, yolumuz cox uzaq düşdü, kələ kötür idi, cox silkələndim, eybi yox, deputat əmi yol çəkəndə, xəstəxana tikəndə bacın ya qardaşın olar. Bacımı bükdüyüm şalı bir az da özümə sıxıb, dəli kimi evə sarı qaçdım. Heç heyim qalmamışdı. Elə heyyy o deputatın dalınca danışırdım. Yolda qonşumuzun babasını gördüm. Xəstə atı, bir arabası vardı, uşaqlara durana kimi evə odun daşıyırdı. O, bizi də mindirdi. A bala, o uşağa soyuq olar. Qonşumuz uşağı kürəyimdən açıb, öz kürkünə bükübü, arabaya qoydu. Atlara güc vurub, sürətlə kələ-kötür yolları keçirdik. Birdən arabanın tıqqıltısı kəsildi. Hamar, təxminən on addımlıq düz yol keçdik. Başımı arabanın əyri-üyrü təkərlərin arasından yola tərəf salladım. Tər-təmiz qapqara asvalt idi, amma niyə bu qədər az... baba bura kimin evidir?

**Həmin deputatındır. O vaxt gəlmişdi ha, mənzərədən xoşu gəlib, kəndin girəcəyində ev tikib. Qabağına da bir tikə asvalt töküb, yola rahat cıxsın deyə. Mən elə heyy yol boyu düşündüm: axı hərənin qapısına bir tikə asvalt töksəydi yolumuz düzələ bilərdi.**